

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 31 (21.183)**

***14 fevral 2015-ci il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iclası keçirilib



***Fevralın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iclası keçirilib. İclasda 2014-cü ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.***

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov 2014-cü ildə muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məruzə ilə çıxış edib.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər həyata keçirilib.

Ramiz Süleymanov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə bağlı məlumat verib, məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazasının təkmilləşdirilməsindən, Ali Məhkəmənin nəşri olan bülletenin növbəti saylarının işıq üzü görməsindən və bülletenin bu saylarının da məhkəmənin rəsmi internet səhifəsində yayımlanmasından, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatları ilə zənginləşdirilməsindən bəhs edib, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi hüquqi maarifləndirmə sahəsində də bir sıra işlər görüb. Ötən illərdə olduğu kimi, 2014-cü ildə də hakimlərin peşə bacarıqlarının artırılması, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilib.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələrinin, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2014-cü ildə gördükləri işlərə dair məlumatları dinlənilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vuraraq bildirib ki, Ali Məhkəmə öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində təşkil edərək ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Ötən il qəbul olunan proqram Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafını daha da sürətləndirib

*Naxçıvan Şəhər İcra Hakimiyyətində 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.*

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov hesabat dövründə Naxçıvan şəhərində həyata keçirilən tədbirlər barədə məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" bu tədbirlərə daha bir stimul olub. Proqrama əsasən, inzibati binaların tikintisi və təmiri, istilik, su təchizatı və kanalizasiya, elektrik enerjisi və qaz təchizatı, yol təsərrüfatı və nəqliyyat, yaşıllaşdırma və abadlıq, gənclər və idman, təhsil, səhiyyə, mədəniyyət, yaşayış sahələrinin tikintisi və təmiri, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, kənd təsərrüfatının infrastruktur təminatı sahələri üzrə genişmiqyaslı tədbirlərin reallaşdırılmasına başlanılıb. Naxçıvan şəhərində gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə "Gənclər şəhərciyi"nin təməli qoyulub, 80 mənzildən ibarət yeni yaşayış kompleksi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin, Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasının, Naxçıvan Muxtar Respublikası



Hərbi Prokurorluğunun, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin, Bayraq Meydanı və Muzeyinin, Xatirə Muzeyinin, Gənclər Mərkəzinin və digər obyektlərin tikintisi başa çatdırılıb, bir sıra obyektlərdə yenidənqurma işləri aparılıb. Hazırda bir neçə obyektin inşası, təmiri və yenidən qurulması davam etdirilir.

İcra başçısının sözlərinə görə, 2014-cü ildə yaşıllıq zolaqlarının yaradılması diqqət mərkəzində saxlanılıb, Naxçıvan şəhəri ərazisinə 780 ədəd müxtəlif meşə, 8650 ədəd müxtəlif meyvə, 6 min ədəd həmişəyaşıl ağac, 14 min ədəd müxtəlif gül kolları, 540 ədəd müxtəlif dekorativ ağaclar əkilib. 7,5 hektar sahədə meşəsalma, 5 hektar sahədə meşəbərpa işləri aparılıb. Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsi 794 hektar sahəyə qulluq göstərib.

Bundan başqa, bəhs edilən dövrdə Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində bir sıra işlər görülüb, Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib. 1 yanvar 2015-ci il tarixə Naxçıvan şəhərində 217 kilometr məsafədə kanalizasiya və 224,4 kilometr məsafədə içməli su xətləri çəkilib. Muxtar respublika paytaxtında bir kəhrizin təmiri başa çatdırılıb. Şəhər əhalisinin məğulluğu məsələlərinə də xüsusi diqqət yetirilib. 2014-cü ildə Naxçıvan şəhərində 1079 yeni iş yeri açılıb ki, bunun 1055-i və ya 98 faizi daimi iş yerləridir. Şəhər sakinlərinə xidmət səviyyəsinin yüksəldilməsi, onların ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi, yerli sahibkarlığın dəstəklənməsi və süni qiymət artımının qarşısının alınması məqsədilə kənd təsərrüfatı məhsullarının satış yarmarkaları davam etdirilib.

Yığıncaqda Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi Azər Nağıyevin, Maliyyə Şöbəsinin müdiri Aqil Həsənovun, Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsinin müdiri Səfər Əhmədovun çıxışları olub.

Müşavirəyə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

## Yaşıllıq sahələrinin genişləndirilməsinə, ekologiyanın qorunmasına diqqət daha da artırılıb

***Fevralın 13-də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasını Ekologiya və Təbii Sərvətlər naziri Hafiz Yaqubov açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, ötən il muxtar respublika ərazisində, ümumilikdə, 536,5 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, 441 min ədəd ağac və gül kolu əkilib. Nazirlik, tabeli idarə və müəssisələr tərəfindən 68,2 hektar sahədə meşəsalma, 151,7 hektar sahədə ting və toxumla meşəbərpa tədbirləri həyata keçirilib. Bəhs olunan dövrdə 300 mindən çox əkinəyararlı, standart ting yetişdirilərək əkin materialı kimi istifadə edilib. Dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsində ən mühüm amil kimi həmin ərazilərin iqlim və torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmış tinglərin yetişdirilməsi məqsədilə dağlıq əraziləri əhatə edən milli park və yasaqlıq ərazilərində 2 hektara yaxın sahədə tingçilik təsərrüfatları yaradılıb. Bundan əlavə, torpaqların münbitliyinin yaxşılaşdırılması, şorakət və eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə qaytarılması üçün Uzunoba Dövlət Meşəsi ərazisində, Uzunoba Su Anbarının ətrafında, Əshabi-Kəhf ziyarətgahına gedən yolun və ziyarətgah ətrafında olan ərazilərdə, milli park və yasaqlıq ərazilərində, Ağbulaq İstirahət Mərkəzi ətrafında 49,4 hektar sahədə yaşıllıqlar salınıb.



Flora və fauna ehtiyatlarının mühafizəsindən də danışan nazir bildirib ki, qış mövsümündə ərazilərin qarla örtülməsi nəzərə alınaraq fauna ehtiyatlarının qidaya olan tələbatının yaxşılaşdırılması, o cümlədən yeni əkilmiş tinglərin, fidanların zərərvericilərdən qorunması üçün biotexniki tədbirlər həyata keçirilib. Fauna ehtiyatlarının qorunması üçün qanunsuz ov edilməsinə qarşı mübarizə tədbirləri çərçivəsində yoxlama-reydlər keçirilib, 18 qanunazidd hal aşkar olunaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülüb. Təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə isə 37 müəssisə və təşkilata 51 min 312 manat ekoloji ödəniş haqqı tətbiq edilərək icrası təmin olunub.

2015-ci ildə qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən Hafiz Yaqubov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 6 yanvar tarixli Fərmanı ilə Geoloji Axtarış və Kəşfiyyat İdarəsi yaradılaraq nazirliyin strukturuna daxil edilib. Nazirliyin aparatında fəaliyyət funksiyaları dəyişdiyinə görə şöbə və sektorların adlarında dəyişikliklər edilib, yeni struktur yaradılıb. Cari ildə nazirlik, tabeli idarə və müəssisələrin kollektivləri çalışacaqlar ki, üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlsinlər, muxtar respublikanın ekoloji vəziyyətinə öz töhfələrini versinlər.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

## Ordubadda bütün sahələrdə böyük nailiyyətlər qazanılıb

2014-cü ilin yekunları Ordubad rayonunda da müzakirə olunub. İcra Hakimiyyətində keçirilən müşavirədə məruzə edən icra başçısı Elşad Məmmədov bildirib ki, 2014-cü ildə də rayonda tikinti-quruculuq işləri geniş vüsət alıb. Ötən il Ordubad Rayon Suvarma Sistemləri İdarəsinin inzibati binasının yenidən qurulması, Aşağı Əylis və Nürgüt kəndlərində kənd mərkəzlərinin, Aşağı Əylis kəndində 234 şagird yerlik tam orta məktəb binasının tikintisi, Ordubad şəhərində bir yaşayış binasının, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad transformator yarımstansiyası binasının əsaslı təmiri, Ordubad şəhərində bir yaşayış binasının təmiri, Akademik Yusif Məmmədəliyevin ev-muzeyinin yenidən qurulması, tarixi Buzxana abidəsinin bərpası başa çatdırılıb. Ordubad şəhərində 3 nömrəli tam orta məktəb binasının, Məhəmməd Tağı Sidqinin ev-muzeyinin, aviakassa binasının tikintisi davam etdirilib.



"Rayon mərkəzi və ətraf kəndlərdə su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması" layihəsi çərçivəsində 23,33 kilometr içməli su xətti, 18,14 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 498 ev birləşməsi aparılıb.

Sahibkarlığın inkişafının diqqət mərkəzində saxlanıldığını bildirən icra başçısı deyib ki, Ordubad şəhərində istixana kompleksi, Vənənd kəndində müxtəlif meyvələrdən kompot istehsalı sahəsi, Aşağı Əylis kəndində heyvandarlıq təsərrüfatı yaradılıb.

Müşavirə iştirakçılarının diqqətinə çatdırılıb ki, Ordubad Rayon Yol Təmir-İstismar İdarəsi tərəfindən Ordubad şəhərdaxili, Dəstə-Dırnıs, Ordubad-Nüsnüs, Aza-Biləv-Parağa, Ordubad-Naxçıvan avtomobil yollarında təmir işləri aparılıb, Aşağı Əylis kənddaxili 1,3 kilometr yola asfalt örtük salınıb, Aza-Biləv avtomobil yolunun 13-cü kilometrində 1 körpü təmir edilib.

İcra başçısı bildirib ki, bəhs olunan dövrdə 338 nəfər işlə təmin olunub, 26 nəfər peşə hazırlığına cəlb edilib, 36 nəfər ictimai işlərə, 13 nəfər kvota yerlərinə göndərilib.

Digər qurumların fəaliyyətindən də bəhs edən icra başçısı buraxılan nöqsanlardan da danışıb.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Bəxtiyar Əsgərovun, Vergilər Şöbəsinin rəisi Məhəmməd İbadovun, Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsinin müdiri Bayram Yusifovun çıxışları olub.

**Xəbərlər şöbəsi**

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



*Culfa Rayon İcra Hakimiyyətində 2014-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq ötən ilin yekunları və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, 2014-cü ildə Culfa rayonunda tikinti-quraşdırma, abadlıq və yenidənqurma işləri davam etdirilib, yeni infrastruktur obyektlər fəaliyyətə başlayıb. 2014-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala 35 milyon 615 min 400 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 32 milyon 525 min 700 manat təşkil edib. Hesabat ilində Şurud kəndində kənd və xidmət mərkəzlərinin, feldşer-mama məntəqəsinin, Bənəniyar kəndində Uşaq musiqi məktəbinin, xidmət mərkəzinin, Əlincə kəndində feldşer-mama məntəqəsinin tikintisi, Bənəniyar kəndində həkim ambulatoriyasının, kənd mərkəzinin əsaslı təmiri, Əlincə kəndində 252, Bənəniyar kəndində 648, Şurud kəndində 110 şagird yerlik məktəb binalarının yenidən qurulması, həmçinin Culfa şəhərinin M.Əsgərov küçəsində yerləşən 18 və 20 nömrəli yaşayış binalarının əsaslı təmiri başa çatdırılıb, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzi, Dövlət Gömrük Komitəsinin "Naxçıvanterminalkompleks" Birliyi üçün inzibati bina və anbar kompleksinin tikintisi, Əlincəqala tarixi abidəsinin, Gülüstan türbəsinin bərpası davam etdirilib.

İcra başçısının sözlərinə görə, sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər əhali rifahının davamlı yüksəlişinə səbəb olub, 2014-cü ildə hər bir işçiyə hesablanan orta aylıq əməkhaqqının məbləği artaraq 349,1 manata çatıb. Bu, 2013-cü illə müqayisədə 4,4 faiz çoxdur. İqtisadi sahədə dinamik artım Culfa rayonu büdcəsinin və Dövlət Sosial Müdafiə Fondunun Culfa Rayon Şöbəsinin gəlirlərinin artmasına səbəb olub. 2014-cü ildə rayon büdcəsinin gəlirləri 840 min 781 manat təşkil edib.

Culfa rayonunda təhsil sahəsində qazanılan uğurlardan da danışan Şükür Babayev bildirib ki, 2013-2014-cü tədris ilində rayon məktəblərinin 497 məzunundan 357 nəfəri ali məktəblərə qəbul olunmaq üçün ərizə verib, onlardan 189 nəfəri ali məktəblərə qəbul olunub. Tələbə adını qazananlardan 21 nəfəri 500-600, 6 nəfəri 600-650, 6 nəfəri isə 650-700 intervalında bal toplayıb. Bundan əlavə, 40 nəfər Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Bildirilib ki, ötən il keçirilən əmək yarmarkalarında 116 nəfər vətəndaş öz ixtisasına və istəyinə uyğun işlə təmin edilib.

Sonra yol verilən nöqsanlardan bəhs edən Şükür Babayev qarşıda duran vəzifələrdən danışıb.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev, rayon Maliyyə Şöbəsinin müdiri Əhməd Məmişov və Dövlət Sosial Müdafiə Fondunun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə çıxış ediblər.

*2014-cü ilin yekunları və 2015-ci ildə qarşıda duran vəzifələrlə bağlı Şahbuz Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə icra başçısı Nurəddin Quliyev məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, 2014-cü ildə rayonun sosial-iqtisadi inkişafı, tikinti-quruculuq və abadlıq işlərinin daha da genişləndirilməsi sahəsində ardıcıl və məqsədyönlü iş aparılıb, rayon ictimaiyyətinin qüvvəsindən səmərəli istifadə etməklə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə nail olmağa çalışılıb. Rayonun sosial-iqtisadi, mədəni həyatı ilə bağlı məsələlərin həllinə xüsusi diqqət yetirilib, qarşıda duran problemlərin həlli istiqamətində konkret tədbirlər həyata keçirilib, qəbul olunmuş qərarların icrası nəzarətdə saxlanılıb.

Bildirilib ki, hesabat ilində Şahbuz şəhərində 216 şagird yerlik 2 nömrəli tam orta məktəb binasının, şəhər mərkəzinin tikintisi, rayon rabitə evinin, bir yaşayış binasının, Ahıllar evinin əsaslı təmiri, Nursu kəndində həkim ambulatoriyası binasının, Gömür kəndində feldşer-mama məntəqəsinin, Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyinin tikintisi, Sələsüz və Nursu kəndlərinin hər birində 234 şagird yerlik, Gömür kəndində isə 110 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması başa çatdırılıb. Gömür kəndində kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilib. Nursu kəndində xidmət mərkəzinin tikintisi yekunlaşdırılıb, Şahbuz şəhərində uşaq bağçası binasının tikintisi, bir yaşayış binasının təmiri davam etdirilib. "Rayon mərkəzi və ətraf kəndlərdə su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması" layihəsi çərçivəsində 16,18 kilometr içməli su xətti, 1,9 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 276 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 30 metr kaptaj tikilib, bulaqlardan suyun yığılması başa çatdırılıb və yığılan su ana xəttə birləşdirilib.

"Rayonun iqtisadiyyatında önəmli sahə olan kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılıb", – deyən Nurəddin Quliyev müşavirə iştirakçılarının nəzərinə çatdırıb ki, ötən il rayonda 4 min 431 ton dənli-paxlalılar, 6 min 883 ton kartof, 4 min 816 ton tərəvəz, 69,7 ton bostan məhsulları, 4 min 718 ton meyvə, 158 ton üzüm istehsal edilib. Heyvandarlıq təsərrüfatlarında da artıma nail olunub, 2 min 456 ton ət, 14 min 12 ton süd, 5 milyon 398 min ədəd yumurta, 172,3 ton yun istehsal olunub.



İl ərzində rayonda ekoloji tarazlığın qorunmasına ciddi önəm verilib. 16,9 hektar sahədə meşəsalma, 1,7 hektar ərazidə meşəbərpa tədbirləri həyata keçirilib. Bu ərazilərdə 13 min 467 ədəd meyvə, 10 min 767 ədəd meşə ağacı, 1750 ədəd həmişəyaşıl ağac, 7 min 503 ədəd gül və bəzək kolları olmaqla, ümumilikdə, 33 min 487 ədəd ağac tingləri, gül və bəzək kolları əkilib.

İcra başçısı rayonda enerji və mavi yanacaqla təminatın yaxşılaşdırılması, əhaliyə göstərilən kommunal, rabitə və nəqliyyat xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərdən də bəhs edib.

Müşavirədə hesabat ili ərzində görülən işlərlə yanaşı, müşahidə edilmiş nöqsanlara da toxunan Nurəddin Quliyev 2015-ci ildə həmin nöqsanların aradan qaldırılması məqsədilə aidiyyəti qurumların qarşısında ciddi vəzifələr durduğunu bildirib.

Sonra məruzə ətrafında çıxışlar olub. Rayon İcra Hakimiyyəti başçısının müavini Yenibar Vəliyev, Vergilər Şöbəsinin rəisi Nazim Rüstəmov, Kapital Bankın Şahbuz rayon filialının müdiri Mübariz Hüseynov 2014-cü ildə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıblar.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada əhaliyə dayanıqlı rabitə xidməti göstərilir

*Müasir dövrdə yeni texnologiyaların tətbiqi hər bir ölkənin əsas inkişaf göstəricisi hesab olunur. Muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsinin davamlı inkişafının təmin olunması da məhz bu məqsədə xidmət edir.*

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin kollektivi qeyd olunan sahələr üzrə fəaliyyətini ötən ay da davam etdirmiş, əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsi yüksəldilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 29 dekabr tarixli Sərəncamına əsasən, Culfa rayonunun Göynük və Nəhəcir kəndləri Babək rayonunun inzibati ərazisinə daxil edilmişdir. Bu səbəbdən də Nəhəcir kəndindəki avtomat telefon stansiyasının nömrə planı dəyişdirilmiş, rabitə evində olan avadanlıqlar Babək Rayon Rabitə İdarəsinin və "Naxçıvanpoçt" MMC-nin Babək rayon filialının balansına verilmişdir.

Muxtar respublika ərazisində geniş vüsət alan tikinti-quruculuq işlərinə uyğun olaraq, yaşayış məntəqələrində rabitə infrastrukturu da müasirləşdirilir. Ötən ay Babək rayonunun Qoşadizə kəndində 336 nömrəlik və Culfa rayonunun Şurud kəndində 384 nömrə tutumlu yeni avtomat telefon stansiyaları qurulmuş, Şurudda yeni poçt bölməsi yaradılmışdır. 1024 nömrəlik Babək rayon mərkəzi avtomat telefon stansiyası, həmçinin rayon İcra Hakimiyyəti, Vergilər Şöbəsi, Maliyyə Şöbəsi, Dövlət Sosial Müdafiə Fondunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Babək Rayon şöbələrinin arabağlantı avadanlıqları yeni binaya köçürülmüşdür. Ümumilikdə, yanvar ayında muxtar respublika üzrə telefon stansiyalarının nömrə tutumları və CDMA simsiz rabitə istifadəçilərinin sayı artmış, ümumilikdə, 333 yeni telefon nömrəsi istismara verilmişdir.

Bu gün muxtar respublikada elə bir yaşayış məntəqəsi yoxdur ki, orada əhaliyə müasir rabitə xidmətləri göstərilməsin. Artıq ən ucqar dağ kəndlərinin sakinləri belə, sürətli və genişzolaqlı internetdən istifadə edirlər. Bu istiqamətdə həyata keçirilən tədbirlər ötən ay da davam etdirilmiş, ümumilikdə, 3530 metr fiber-optik kabel xətti çəkilmiş, Şərur rayonunun Kürkənd, Culfa rayonunun Şurud, Kəngərli rayonunun Yeni Kərki, Şahbuz rayonunun Gömür kəndlərində istifadəçilərin sürətli internetə çıxışı təmin olunmuşdur. Görülən bu tədbirlər nəticəsində muxtar respublikada genişzolaqlı internet abunəçilərinin sayı artmış, ötən ay 547 yeni istifadəçi qeydiyyatdan keçmişdir.

Gənclərin informasiya texnologiyalarını dərindən mənimsəməsi günün tələbinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində keçilən kompüter kursları da bu məqsədə xidmət edir. Hazırda mərkəzdə 34 qrupda 295 dinləyici təhsil alır. Bu sahədə görülən işlərin tərkib hissəsi kimi muxtar respublikada məktəblərin müasir informasiya texnologiyaları ilə təminatına da xüsusi diqqət yetirilir. Yanvar ayında Naxçıvan şəhərindəki 9 nömrəli, Ordubad şəhərindəki 2 nömrəli, Şərur rayonunun Kürkənd, Culfa rayonunun Şurud və Bənəniyar kənd tam orta məktəblərində 220 kompüter dəsti quraşdırılmış və internetə çıxışı təmin edilmişdir.

Muxtar respublikada "elektron hökumət"in tətbiqi də uğurla həyata keçirilir. Ötən ay ərzində muxtar respublikanın "elektron hökumət" portalında elektron imza kartı vasitəsilə autentifikasiya xidməti tam işə salınmış və sistemə əmək müqaviləsi bildirişləri əlavə olunmuşdur. Həmçinin Rabitə və Yeni Texnologiyalar Nazirliyinin ümumi işlər və kadrlar sektoruna elektron imza kartı verilmişdir.

2015-ci ilin ilk ayında muxtar respublika əhalisinin keyfiyyətli televiziya və radio yayımları ilə təminatı istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə "BBTV" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında bağlanmış 2011-ci il 16 iyun tarixli müqaviləyə və Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən televiziya yayımı üçün verilən xüsusi icazəyə əsasən, bu il yanvar ayının 14-dən etibarən muxtar respublika ərazisində 67 yerli və xarici televiziya kanallarının rəqəmsal yayımına başlanılmışdır. Bunun üçün Duzdağ Radio-Televiziya Verici Stansiyasında 7 ədəd rəqəmsal televiziya vericisi qurulmuş, Naxçıvan Dövlət Televiziyasının HD formatda yayımı təmin olunmuşdur.

Yanvar ayında muxtar respublikada poçt-rabitə xidməti də nümunəvi təşkil olunmuşdur. Bu dövr ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan daxil olan maniqramların məbləği 126 min 717 manat olmuş, rüsumu 3 min 681 manat, sayı isə 1301 ədəd təşkil etmişdir. "Colvir" sistemi ilə 471 min 291 manat maniqram qəbul edilmiş, 799 min 637 manat maniqram ödənişi həyata keçirilmişdir. Həmçinin beynəlxalq istiqamətlər üzrə 80 manat maniqram qəbul edilmiş, 1192 manat maniqram ödənilmişdir. Ay ərzində 1615 kiloqram çəkidə 217 bağlama göndərilmiş, 9 min 793 kiloqram çəkidə 1611 bağlama daxil olmuşdur. Ötən ay abonentlərdən 525 min 556 manat elektrik enerjisindən, 1 milyon 430 min 190 manat təbii qazdan, 2 min 231 manat sudan istifadə haqqı toplanmışdır. Bu dövr ərzində rabitə xidməti üzrə toplanan abunə haqqı 258 min 909 manat, mobil cihazların qeydiyyatı üzrə toplanan vəsaitin dəyəri isə 16 min 495 manat olmuşdur.

*Muxtar respublikada rabitə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və yeni texnologiyaların tətbiqi istiqamətində işlər davam etdirilir.*

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

*Muxtar respublikada dəmir yolu nəqliyyatı inkişaf etdirilir, daşımaların təhlükəsizliyi, infrastrukturun yeniləşdirilməsi və xidmətin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır. Aparılan ardıcıl tədbirlərin nəticəsidir ki, dəmir yolu nəqliyyatından istifadə edənlərin sayı hər ötən ay daha da artır. Cari ilin yanvar ayında qatarlar vasitəsilə 10 min 653 sərnişin daşınmışdır. Bu dövr ərzində Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən 4 min 440 ton müxtəliftəyinatlı yük muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına çatdırılmışdır.*

## Dəmiryolçular ötən ayı uğurla başa vurmuşlar

Sərnişin və yük daşımalarının mütəmadi təşkili, hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin müvafiq strukturları tərəfindən qatar və vaqonların, eləcə də elektrik şəbəkəsi və digər dəmir yolu qurğularının sazlığına nəzarət olunur. Yanvar ayında Culfa lokomotiv və vaqon depolarında elektrovozlar 4, teplovozlar 2 dəfə texniki baxışdan keçirilmiş, 1 elektrovoz və 4 vaqon cari təmir edilmişdir. Həmçinin İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmişdir. Bu dövr ərzində yolların cari təmiri də diqqət mərkəzində saxlanılmış, defektoskop briqadası tərəfindən 78 kilometr baş yol, 20 kilometr stansiya yolları, 30 dəst yoldəyişdirici qurğu və 3760 qaynaq calağı yoxlanılmış, xidməti ərazidə olan nasazlıqlar aradan qaldırılmışdır. Həmçinin 29 yararsız ağac şpal yenisi ilə və ya dəmir-beton şpallarla əvəz edilmişdir. Qatarların stansiyalarda hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə rabitə və işarəvermə qurğularının sazlığı da nəzarətdə saxlanılmış, sıradan çıxmış 15 müxtəliftipli rele, həmçinin qatar dispetçeri ilə maşinistlər arasında olan radio-rabitənin səmərəli təşkili üçün lokomotivlərdə 8 müxtəliftipli blok dəyişdirilmişdir.

Qış mövsümündə sərnişinlərin rahat gediş-gəlişlərini təmin etmək məqsədilə sərnişin vaqonlarının təchizatı mütəmadi olaraq yaxşılaşdırılır. Bu sahədə görülən işlər çərçivəsində vaqonlar yoxlamalardan keçirilmiş, 1 vaqonun istilik sistemi bərpa olunmuşdur.

Dəmir yolu obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması da dəmiryolçuların diqqət mərkəzindədir. Yanvar ayı ərzində alçaq və yüksəkgərginlikli elektrik ötürücüsü xətlərində və kontakt şəbəkəsi xəttində təmir işləri aparılmış, 30 yararsız izolyator, 1 xətt ayırıcısı, 1 travers, 1 kontakt şəbəkəsi dayağında yük kompensatorunun trosu dəyişdirilmişdir. Bundan başqa, stansiyalarda, inzibati, texniki və yardımçı binalarda elektrik xətləri yoxlanılaraq nasazlıqlar aradan qaldırılmışdır.

Dəmir yolları infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi işləri də ardıcıl surətdə davam etdirilir. Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən yanvar ayında Ordubad stansiyasının İdarəetmə Mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad Yol Sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir.

Ümumiyyətlə, yanvar ayında görülmüş işlər nəticəsində Ordubad-Vəlidağ istiqamətində bütün qatarların fasiləsiz hərəkəti təmin olunmuşdur. Dəmir yolu nəqliyyatının təhlükəsiz və rahat təşkili, xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdiriləcəkdir.

**"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti**

## Mədəniyyət hardan başlayır?

*Bu şəhərin və ya əyalətin mədəni səviyyəsini necə ölçmək olar? Tikilən təzə binalarlamı? Yox. Yaxşı yollarlamı, reklam, şüar çoxluğu, uşaqlara məhəbbət, qocalara hörmət, adamların yaxşı geyim, səliqə-sahmanıylamı? Yenə də yox! Ayrılıqda bunların heç biri bir əyalət və şəhərin mədəni səviyyəsini müəyyən etmir. Bu və ya digər şərtlərin hamısı bir yerdə bir-birini tamamladıqda, biri digərinə təkan olduqda mədəniyyət yaranır, inkişaf vüsət alır.*

O tikilən təzə binada adamlar necə yaşayır, qonşuluq münasibətləri necədir? Yaxşı geyimkecimli müasir adam qonşusunun dar günündə qapısını bərk-bərk bağlamır ki?.. Bir yetim uşağın taleyinə öz uşağı kimi yanırmı? Bunları düşünürəm. Düşünürəm ki, təzə binalara köçənlərin kitab rəfi olmayanda adamlar onlara necə baxır? Kitabsız, mütaliəsiz hansı bilikdən, hansı mədəniyyətdən danışmaq olar? Bəs bəzi kəndlərdə kitabxanaların çoxunun qapısı həftələrlə bağlı qalanda adamlar buna necə dözürlər? Belə vaxtda kitabxana müdirindən hesabat istəyən, hətta ona "gəl bir neçə gün səni ac qoyaq, görək necə olur? " deyənlər tapılmırmı?..

Bir məktəb tanıyıram. Uşaqlıq xatirələrimlə bağlı məktəb. Məhəbbətimə ilk qanadlar bağlayan məktəb, müəllimlərimə əbədi hörmətimi saxlayan məktəb. Təəssüf ki, son vaxtlar müəllimlər arasında oxu, mütaliə səviyyəsi çox aşağı düşüb. Hətta açıq deyək, elələri var ki, ali məktəbi bitirəndən sonra dərs dediyi sinfin dərsliyindən qeyri kitab açmayıb. Onun yetirdiyi gəncin şüurunun əhatə dairəsi nə boyda ola bilər?

Müəllim təkcə təlimçi deyil, o həm də sabahı yaradacaq nəslin tərbiyəsinə, ideya və dünyagörüşünə məsul şəxsdir. Müasir kəndlərimizdə maarif və mədəniyyətin, mütərəqqi ənənələrin, adamların geyim, davranış, ədəb-ərkan keyfiyyətlərinin təbliğatçısı, nümunə göstəricisidir. Onun özünün şəxsi həyat tərzi, səliqə-sahmanı kəndin başqa mütəxəssis ziyalılarına da örnək olmalıdır.

Naxçıvanda az qala hər binaya bir çayxana yapışdırılıb. Bir qoca kişi elə çayxanaların birində zarafatla dedi: "Naxçıvanda çayçılar nazirliyi təşkil etmək lazımdır".

Bəzən elə səhər gözünü açıb görürsən ki, evinin böyrünə bir çayxana söykəyiblər. Bir yekə çayxana da mərkəzi kitabxananın binasında yerləşir. Qırmızı tuf daşdan tikilmiş binanın bir tərəfini nəğməkar samovarlar yavaş-yavaş qaraltmaq işi ilə məşğuldurlar.

Biz çayçıların çayını bulandırmaq, samovarlarına soyuq su tökmək fikrində deyilik. Naxçıvanda təzə yaranan "çaylamaq" feilinin də dilimizə gəlməsinə etiraz eləmirik. Məsələ bundadır ki, Naxçıvan kimi bir şəhərdə bir dənə də olsun gənclər klubu, kafesi, şahmat yeri yoxdur. Kafe açmaq təşəbbüsündə olan tapılıb, ancaq bir vaxt ayılıb görüblər ki, kafe dönüb olub kababxana.

Son iki ildə 15 qəlyanaltı tikilib. Təkcə bir küçədə 13 qəlyanaltı, aşxana, restoran saymaq olar. Bunların hamısının menyusu olduqca kasıbdır, əsasən, kabab, ya da lüləkababdır. Görürsünüzmü, kababxana açmaq necə asandır, kafe açmaq çətin.

Əgər Naxçıvana gələn bir qonaq xəstələnsə, dərmanını süd desələr, heç bir mağazada tapmazsan. Halbuki Naxçıvanın bütün rayonları maldarlıqla məşğuldur.

Bir vaxtlar Naxçıvanın mərkəzi parkında – "Böyük bağ"da yaxşı əyləncəli görüşlər olardı, nəfəsli orkestr çalardı, rəqs meydançası cavanların dabanında oynardı. Dünən geriyə qayıdan deyil. Amma dünənin yaxşı adət və ənənələrini həmişə geri qaytarmaq olar.

Yaradıcı gənclərin yeganə istinadgahı olan "Şərq qapısı" qəzetinin poliqrafiya keyfiyyətindən oxucular gileylənirlər. Hələ 1958-ci ildə Naxçıvanda mətbəə tikilməsi haqda qərar olub. 1966-cı ildə həmin mətbəənin özülü qoyulub, sonra da özül zibilxanaya dönüb.

Kimdir bu işə məsul? Niyə bu qərar yerinə yetirilmir?

Naxçıvan isti olan yerdir. Yay aylarında göydən od tökülür. İstirahət günləri camaat əylənməyə yer tapmır. Şəhərdən çox da uzaq olmayan Uzunoba gölünə adam buraxılmır.

Bu, nədir? Bu qanunu kim qoyub? Madam ki, camaatın istirahətinə şərait yaratmırsan, gedənlərə avtobus vermirsən, nə üzlə "əyri yolla" gedən maşınların qabağını kəsirsən?

***Məmməd ARAZ***
***1967-ci il***

***Bir vaxtlar böyük ustad, Azərbaycan milli ideologiyasının söz bayraqdarı, bir misrasıyla minbir düşüncəni ifadə edən Xalq şairi Məmməd Arazın ürək yanğısıyla yazdığı bu məqalə ilə tanış olanda bir daha aydın olur ki, bügünkü Naxçıvan dahilərimizin, mütəfəkkirlərimizin, korifeylərimizin arzuladığı bir diyara çevrilib. Yüksək mədəniyyətin formalaşmasının yalnız hərtərəfli inkişafla, yəni intibahla mümkün olacağını qeyd edən böyük şair bu sözləriylə sanki bugünkü Naxçıvanı canlandırmağa çalışıb.***

## Arzulardakı Naxçıvan...

Bəli, bu gün muxtar respublika intibah dövrünü, yüksəliş dövrünü yaşayır. Ulu öndər Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən sədaqətli, vətənpərvər, işgüzar həmyerlilərimiz mümkün olmayanı reallaşdırmaqla, yəni üç tərəfdən düşmən əhatəsində, blokadada yaşayan bir diyarın iqtisadiyyatını, mədəniyyətini, incəsənətini, təhsilini, səhiyyəsini və digər sahələrini inkişaf etdirməklə naxçıvanlıların arzularını həyata keçiriblər.

Böyük ustadın arzuladığı kimi, bu gün Naxçıvan Muxtar Respublikasının hər bir şəhərində, kəndində kitabxanalar fəaliyyət göstərir. Burada Azərbaycan və dünya ədəbiyyatı nümunələrindən minlərlə kitab oxucuların yolunu gözləyir. Ancaq çox təəssüf ki, insanların kitab mütaliəsinə göstərdiyi biganə münasibət ədibin məqaləni qələmə aldığı 1967-ci ildə necədirsə, bu gün də elədir. Dövlətimiz insanların kitaba olan tələbatını, hətta deyərdim ki, artıqlaması ilə ödəyir. Muxtar respublikanın ən ucqar dağ kəndinin kitabxanasında bəzən ölkə paytaxtı Bakı şəhərinin kitabxanalarından tapa bilmədiyimiz nadir əsərləri görmək mümkündür. Bəs onda bizə nə mane olur? Niyə mütaliəyə biganə yanaşırıq? Buna görə də, təəssüf ki, dahi şairimizin 48 il bundan əvvəl yazdığı "Kitabsız, mütaliəsiz hansı bilikdən, hansı mədəniyyətdən danışmaq olar? – ifadəsini bu gün də təkrarlamağa ehtiyac duyulur.

Bu məsələdə təhsil işçilərinin, müəllimlərin üzərinə böyük vəzifə düşür. Çünki Məmməd Arazın qeyd etdiyi kimi, "Müəllim təkcə təlimçi deyil, o həm də sabahı yaradacaq nəslin tərbiyəsinə, ideya və dünyagörüşünə məsul şəxsdir". Bəli, müəllim yeni nəslin, nəsillərin nümunəsidir. Bu gün onun təhsil verdiyi, tərbiyə etdiyi uşaqlar sabah yeni nəslin tərbiyəçiləri olacaqlar. Hədər yerə deməyiblər ki, müəllimlər bir millətin gələcəyini formalaşdırır, mədəniyyət səviyyəsini müəyyənləşdirir. Ötən il 160 illik yubileyini qeyd etdiyimiz Məhəmməd Tağı Sidqinin timsalında biz bunu daha aydın şəkildə görürük. Böyük maarifpərvərin yaratdığı "Əxtər", "Tərbiyə" məktəbləri Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid kimi dahilər yetişdirib. Hüseyn Cavid M.T.Sidqiyə "böyük ustad və cəlallı atamız" deyə müraciət edib. Bu, müəllimin cəmiyyətdəki rolunu ifadə edən ən gözəl nümunədir…

Məmməd Araz məqaləsində Naxçıvanda çayxanaların çoxluğundan, digər sosial obyektlərin isə olmadığından haqlı olaraq şikayətlənirdi. Bu məsələdə böyük şairin arzuları həyata keçirilib. Bu gün Naxçıvan şəhərində, hətta muxtar respublikanın ən ucqar kəndlərində də müasir memarlıq üslubunda yeni sosial obyektlər tikilərək istifadəyə verilib. Kənd mərkəzləri, xidmət mərkəzləri, həkim ambulatoriyaları, təhsil müəssisələri nəinki Azərbaycanın digər regionları üçün, hətta dünya ölkələri üçün nümunə təşkil edir.

Böyük şair şikayətlənirdi ki, "Naxçıvan kimi şəhərdə bir dənə də olsun gənclər klubu, kafesi, şahmat yeri yoxdur". Bu gün isə biz şəhərimizə gələn qonaqlarımıza yan-yana düzülən, çox zaman faydalı əməklə məşğul olmaq istəməyən insanları topladığı çayxanaları deyil, müasir Gənclər Mərkəzini, Şahmat Mərkəzini, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzini, İlham Əliyev adına Olimpiya-İdman Kompleksini, Üzgüçülük Mərkəzini və digər əhəmiyyətli sosial obyektləri göstəririk. Qonaqlar gözəlliyi ilə gözoxşayan otellərdə, istirahət mərkəzlərində qalır, müasirliyi ilə seçilən və xidmət mədəniyyəti gündən-günə daha da yaxşılaşan restoranlarda hazırlanan milli yeməklərimizə heyranlıqlarını gizlətmirlər.

"Əgər Naxçıvana gələn bir qonaq xəstələnsə, dərmanını süd desələr, heç bir mağazada tapmazsan", – deyən böyük ədibimiz, təəssüflə Naxçıvanın bütün rayonlarının maldarlıqla məşğul olduğunu xatırladırdı. Bu gün isə vəziyyət tamam başqadır. İndi muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Dövlət maliyyə dəstəyi ilə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılan bu qabaqcıl müəssisənin istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb.

Həmin dövrdə nəşr olunan "Şərq qapısı" qəzetinin poliqrafik keyfiyyətinin aşağı olmasından, 1958-ci ildə tikilməsi nəzərdə tutulan mətbəənin 1966-cı ildə özülünün qoyulduğunu, sonra da özülün zibilxanaya çevrildiyindən yazan böyük ustad əlaqədar orqanlara səslənir, onları yalan vədlər verməyə deyil, iş görməyə dəvət edir, haqlı iradını bildirirdi.

Şairin 1967-ci ildə arzuladıqları 2010-cu il iyulun 22-də Naxçıvan Muxtar Respublikasının rəhbəri tərəfindən reallaşdırıldı. Həmin gün "Şərq qapısı" qəzeti redaksiyasının, Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binasının və mətbəəsinin istifadəyə verilməsi istər kitabların, istərsə də muxtar respublikada işıq üzü görən qəzetlərin ən yüksək poliqrafik keyfiyyətdə çap və nəşr olunmasına şərait yaradıb.

Məmməd Araz isti yay günlərində Naxçıvanda insanların əylənməyə yer tapmadığını, Uzunoba gölünə isə heç kəsin buraxılmadığını yazır, bunun səbəbkarlarını ittiham edirdi. Onun bu istəyi, arzusu da bu gün artıq həyata keçirilib. Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyi istifadəyə verilib. Ərazidə kompleks tikinti işləri aparılıb, Uzunoba Su Anbarı əsaslı şəkildə yenidən qurulub. Qızmar yay aylarında xüsusi avtobuslar çimərliyə getmək istəyən insanların ixtiyarına verilir.

Naxçıvançay vadisində insanların istirahətinin səmərəli təşkili üçün Əyləncə və İstirahət Mərkəzi inşa edilib. Ötən il iyulun 24-də Əyləncə və İstirahət Mərkəzinin açılışı olub. Bu, böyük ədibin bir zamanlar arzuladığı Naxçıvandır...

Sonda qeyd edək ki, 2014-cü il dekabrın 1-də – Məmməd Arazın anım günündə doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində onun ev-muzeyinin açılışı oldu. Xalq şairinin həyat yoldaşı Gülxanım İbrahimova Məmməd Araz irsinin yaşadılmasına göstərdiyi diqqət və qayğıya görə ailə üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etdi. G.İbrahimova Məmməd Arazın ev-muzeyinin yaradılmasının həm də şairin arzularının öz Vətənində həyata keçirilməsi kimi dəyərləndirdi.

Xalq şairinin həyat yoldaşı Ali Məclis Sədrinə, əslində, həm də ədəbiyyatsevərlərin minnətdarlıq hislərini çatdırmış oldu. Çünki Məmməd Araz təkcə Naxçıvanın deyil, böyük Azərbaycanın böyük şairidir. Ona göstərilən diqqət Azərbaycan xalqının ədəbi irsinə göstərilən diqqətdir...

***Ruhun şad olsun, böyük ustad. Bu gün sənin doğma Naxçıvan barədə bütün arzuların tam həyata keçirilib. Bunu reallaşdıran İnsan isə ümummilli lider Heydər Əliyevin nurlu yolunu qətiyyətlə, inamla davam etdirən, xalqa, doğma Vətənə xidməti, dövlət-xalq və xalq-dövlət birliyini özünün devizinə çevirən vətənsevər RƏHBƏRDİR.***

**Rauf ƏLİYEV**



*Naxçıvan şəhərində Gənclər Mərkəzi*



*Naxçıvan şəhərində Şahmat Mərkəzi*



*Naxçıvan şəhərində redaksiya-nəşriyyat kompleksi*



*Naxçıvan şəhərində Əyləncə və İstirahət Mərkəzi*



*Uzunoba Su Anbarında çimərlik-istirahət mərkəzi*

## Dövlət proqramının qəbul edilməsindən üç il ötür

***Ulu diyarımız Naxçıvan əlverişli torpaq-iqlim şəraitinə malikdir. Burada kənd təsərrüfatının çoxşaxəli inkişafı üçün hər cür imkan vardır.***



Muxtar respublikada kənd təsərrüfatının inkişafı ilə bağlı əldə olunan müvəffəqiyyətlər istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edir.

Dövlət proqramı kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, sahibkarlığın inkişafına stimul verib. Bunun nəticəsidir ki, ötən il muxtar respublikada 355 milyon 157 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib.

Regionumuzda əkinçilik aparıcı sahələrdən biridir. Torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş torpaq mülkiyyətçiləri onlara göstərilən dəstəkdən bəhrələnərək 35 min 750 hektar sahədə taxıl əkib, zəmilərdən 103 min 70 ton məhsul toplayıblar.

Muxtar respublikada kartofçuluğun inkişafı da diqqət mərkəzindədir. Son illərə qədər regionda bu məhsula olan tələbat kənardan gətirilməklə ödənilirdisə, hazırda bu tələbat yerli istehsal hesabına ödənilir. Ötən il 2962 hektar kartof əkini sahəsindən 41 min 405 tondan çox məhsul yığılıb.

Kənd təsərrüfatının mühüm sahələrindən biri də meyvə-tərəvəzçilikdir. Meyvə-tərəvəzçilik iqtisadi baxımdan da əhəmiyyətlidir. Digər tərəfdən, bölgədə yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarının becərilməsi üçün əlverişli ekoloji mühit vardır. Bu amil nəzərə alınaraq muxtar respublikamızda həyata keçirilən yaşıllaşdırma tədbirlərində meyvə ağaclarının əkilməsinə üstünlük verilib.

Muxtar respublikamızda meyvəçilik və tərəvəzçiliyin inkişaf etdirilməsi bu gün də mühüm məsələ kimi qarşıda durur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın məqsədi də muxtar respublikada meyvəçilik və tərəvəzçiliyin davamlı inkişafını təmin etməkdir. Qəbul olunmuş bu dövlət proqramı ilə muxtar respublikada meyvə və tərəvəzçiliyin inkişafında yeni bir mərhələnin əsası qoyulub.

Hələ qədim zamanlardan ulu diyarımız özünəməxsus keyfiyyətli yerli məhsulları ilə tanınıb. Dövlət proqramında bir vaxtlar mövcud olmuş qiymətli meyvə sortlarının yenidən bərpası, əkilib-becərilməsi, intensiv texnologiyalara əsaslanan yüksəkkeyfiyyətli və məhsuldar sortlardan ibarət meyvə bağlarının salınması, tərəvəz məhsullarının əkin sahələrinin genişləndirilməsi və artırılmasına nail olunması, yabanı meyvə-tərəvəz bitkilərindən istifadə imkanlarının müəyyənləşdirilməsi, daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması nəzərdə tutulur. Bundan başqa, dövlət proqramının icrası meyvə-tərəvəzçiliyin inkişafı yolu ilə kənd əhalisinin məşğulluğunun artırılması, onların maddi rifah halının yaxşılaşdırılması üçün də əlavə imkanlar açır. Qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə çalışan torpaq mülkiyyətçiləri ötən təsərrüfat ilində meyvə bağlarından 36 min 196 ton, tərəvəz sahələrindən isə 66 min 731 ton məhsul toplayıblar. Gələcəkdə həmin sahələrdən daha çox məhsul əldə etmək üçün geniş imkanlar vardır. Çünki torpaq mülkiyyətçiləri bu gün həm əkinin keçirilməsində, həm də məhsul satışında heç bir problemlə qarşılaşmırlar.

Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarda rəqabətqabiliyyətli məhsul satışına nail olmaq üçün məhsulun çeşidləməsinə, qablaşdırılmasına, saxlanmasına, istehsala və ixracına stimul yaradan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Kənd təsərrüfatının mühüm istiqamətlərindən biri də tərəvəzçilikdir. Bunun üçün sənaye texnologiyalarının tələblərinə cavab verən sortların və hibridlərin yaradılması, toxumçuluğun yaxşılaşdırılması, müasir kənd təsərrüfatı maşın və mexanizmlərindən istifadə olunması, suvarmanın və növbəli əkinlərin tətbiqi, torpaqların münbitliyinin artırılması, istixana komplekslərinin yaradılması və digər tədbirlərin həyata keçirilməsi vacibdir.

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunması üçün ötən il 6 yeni istixana kompleksi istifadəyə verilib. Bunlardan biri də Kəngərli rayonunun Böyükdüz kəndində yerləşən "Naxçıvan bağları" Tərəvəz Məhsulları İstixana Kompleksidir. Müəssisənin illik istehsal gücü 1300 tondur.

Hazırda muxtar respublikada ümumi sahəsi 100 min kvadratmetrdən çox olan istixana kompleksləri fəaliyyət göstərir. Bu da payız-qış mövsümündə əhalinin keyfiyyətli tərəvəz məhsulları ilə təminatında mühüm rol oynayır.

Muxtar respublikada əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir. Bununla belə, tələbatdan artıq olan məhsulların emala yönəldilməsi də prioritet məsələlərdəndir. Meyvə və tərəvəz məhsullarından hazırlanan müxtəlif turşular, tomat pastası, mürəbbələr, şirələr, pürelər və digər konserv məmulatlarını istehsal etməklə əhalinin bu məhsullara olan tələbatını ödəmək mümkündür.

Dövlət proqramında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin də qarşısında bir çox vəzifələr qoyulub. Belə ki, adıçəkilən nazirliyə Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik unudulmuş (aborigen) meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması, eləcə də meyvə-tərəvəz əkinləri sahəsində yüksək məhsul istehsalına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması kimi vəzifələrin icrası tapşırılıb.

Nazirliyin əməkdaşları tərəfindən yüksək reproduksiyalı, məhsuldar toxumla təminatı yaxşılaşdırmaq məqsədilə təchizat bazasının yaradılması, torpaqların münbitliyinin yaxşılaşdırılması, şoran, şorakət və eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə qaytarılması üçün rayonlarda həmin ərazilər mütəxəssislər tərəfindən xəritələnib və torpaq mülkiyyətçilərinə lazımi məsləhətlər verilib.

Dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan əkinəyararlı torpaq sahələrində meyvə və tərəvəz əkinlərinin əkin atlaslarına uyğun təşkil edilməsi, muxtar respublikada özünəməxsus ənənələrə malik olan meyvə, həmçinin tərəvəz sahələrinin genişləndirilməsi istiqamətində xeyli işlər görülüb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikamızda ötən il tərəvəz əkini sahələri 6125 hektara, meyvə bağları sahələri isə 4382 hektara çatdırılıb.

Yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarından ibarət bağların salınması, torpaq və iqlim xüsusiyyətləri nəzərə alınmaqla meyvə və tərəvəzçiliyin rayonlar üzrə yerli şəraitə uyğun inkişaf etdirilməsi, torpaqların münbitliyinin artırılması ilə əlaqədar yerlərdə mütəmadi olaraq maarifləndirici tədbirlər həyata keçirilir. Meyvəçilik və tərəvəzçilik sahələrinə yerli və xarici kapitalın cəlb olunması üçün müvafiq tədbirlərin həyata keçirilməsi, həmçinin meyvə-tərəvəzçilik sahəsində yüksək reproduksiyalı, yerli şəraitdə məhsuldarlıq baxımından özünü doğrultdan toxum və ting istehsal edən sahibkarlara dövlət tərəfindən maliyyə dəstəyi göstərilib və onlara müvafiq güzəştli kreditlər verilib.

Meyvə-tərəvəzçilik sahəsində zərərverici və xəstəliklərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi məqsədilə istifadə edilən kimyəvi preparatlara olan ehtiyac və meyvə-tərəvəz əkinlərində kompleks aqrotexniki tədbirlərin həyata keçirilməsi təmin olunub, sahibkarlara lazımi köməkliklər göstərilib.

Təbii fəlakət və digər səbəblərdən meyvə-tərəvəz əkinlərinə dəyə biləcək zərərin ödənilməsi üçün sığorta tədbirlərinin reallaşdırılması, üzvi və mineral gübrə istehsalı sahələrinin genişləndirilməsi üçün torpaq mülkiyyətçilərinə və fermerlərə bu haqda lazımi tövsiyələr verilib.

İstehsal olunan meyvə-tərəvəz məhsullarının realizə edilməsi üçün sahibkarlar arasında marketinq işinin təbliği, sərgi-satış yarmarkalarının təşkili və eləcə də qış aylarında əhalinin faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması, mövcud sahələrin genişləndirilməsi dövlət proqramında qarşıya qoyulan vəzifələrdəndir ki, bu istiqamətdə də işlər davam etdirilir.

*Sahibkarlar və torpaq mülkiyyətçiləri yaradılmış imkanlardan səmərəli istifadə etməklə bu il də uğurlarını daha da artıracaqlar. Ölkənin ərzaq bazarının inkişafı ilə yanaşı, insanların sağlamlığı və gələcək nəslin həyatının təhlükəsizliyi də məhz bu gün görülən işlərin keyfiyyətindən çox asılıdır. 2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunub. Bu, dövlətin kənd təsərrüfatı sahəsinə xüsusi əhəmiyyət verdiyini bir daha təsdiq edir.*

**Tural HAQVERDİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

## Kənd təsərrüfatı texnikaları 40 faiz güzəştlə satılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti aqrar bölmənin kənd təsərrüfatı texnikaları ilə təchizatını, müxtəlif servis xidmətlərinin göstərilməsini, torpaq mülkiyyətçilərinə güzəştli qiymətlərlə mineral gübrələrin satışını həyata keçirir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xəttilə 264 ədədi 2014-cü ildə olmaqla, cəmi 1505 ədəd müxtəliftəyinatlı müasir kənd təsərrüfatı texnikaları və avadanlıqlar alınıb gətirilib.



"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən bildirdilər ki, məhsuldarlığın artırılmasında mühüm rol oynayan mineral gübrələrin alınaraq muxtar respublikaya gətirilməsi və torpaq mülkiyyətçilərinə çatdırılması da diqqət mərkəzində saxlanılıb, ötən il güzəştli qiymətlərlə 3867 ton mineral gübrə satılıb və kifayət qədər mineral gübrə ehtiyatı yaradılıb. Texnikaların hüquqi və fiziki şəxslər tərəfindən alınmasına əlverişli şərait yaradılıb, 276 ədədi 2014-cü ildə olmaqla, lizinq yolu ilə 1093 ədəd texnika satılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli Fərmanına uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən lizinqə götürülmüş, habelə Yaponiya hökumətinin 2KR proqramı çərçivəsində (dəyərinə güzəşt tətbiq edilmiş qrant hesabına alınan texnika istisna olmaqla) alınmış və icarəyə verilmiş özüyeriyən, asılan və qoşulan kənd təsərrüfatı texnikalarına həmin texnikanın qalıq dəyəri həcmində, lakin onların ilkin dəyərinin 40 faizindən yuxarı olmamaq şərtilə güzəşt tətbiq edilir. Həmçinin kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən lizinqə götürülmüş kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt olunur.

Məlumat üçün bildirək ki, yuxarıda bəhs edilən 40 faizlik güzəşt 2005-ci ildən bu günə kimi lizinq yolu ilə kənd təsərrüfatı texnikaları satılmış 706 nəfərə şamil ediləcək. İndiyə qədər bu güzəştdən 300 nəfərə yaxın kənd təsərrüfatı texnikası istifadəçisi yararlanıb. Bu proses davam edir.

**Kərəm HƏSƏNOV**

## İydə haqqında nə bilirik?



***Naxçıvan torpağının ən nadir, qiymətli dərman bitkilərindən biri də iydədir. Qafqaz florasında az yayılan bu bitkinin vətəni, bəlkə də, Naxçıvandır. Respublikamızın əksər bölgələrindən bazarlara xüsusən Novruz bayramı ərəfəsində matah nemətlərdən biri kimi iydə meyvəsi də çıxarılır. Xəzər növünə məxsus olan iydələr xırda meyvəli olur. Lakin Naxçıvan torpağında əhali arasında "innabı" iydə kimi tanınan iydə meyvələri az qala baş barmaq iriliyində olur. Nədir iydə?***

Altı, bəzən 8 metr hündürlüyündə kol və ağac kimi inkişaf edən, yarpaqları qışqabağı tökülən, bəzən zəif şaxtalı illərdə yarpaqlarını yazadək saxlayan, arıçılıq üçün qiymətli bal tutar, insanlar üçün qiymətli dərman bitkisidir. Vegetativ orqanları ilə asanlıqla artırılıb yayılan subtropik bitkilər qrupuna aiddir. Subtropik bitkilərdən nar, əncir, zeytun, xurma, xar tut, naringi, portağal, feyxoa kimi bitkilər Naxçıvanın sərt şaxtalarına tab gətirə bilmədikləri halda, iydə ağacları dözüm göstərərək payızın son ayında budaqlarındakı al-qırmızı, rəngli meyvələri ilə göz oxşayır. Babək rayonu iydənin inkişafı və bar verməsi baxımından rayonlarımızdan fərqlənir. Ta qədimdən Vayxır, Xalxal, Sirab, Qahab, Kültəpə, Nəhəcir, Zeynəddin, Kərimbəyli kəndlərində həyətyanı sahələrdə təkməseyrək becərilən iydə ağacları payızın son ayında Milax armudu (asma), ətirli heyva ilə birlikdə həyətyanı sahələrə yaraşıq verir. Bir dəfə Vayxır kəndində 95 yaşlı Mehrac baba iydədən söhbət açarkən bildirdi ki, hər kəs qənd əvəzinə iydə, tut qurusu, ərik qaxı ilə ocaqda qaynadılan çay (kəklikotu, qantəpər, çobanyastığı, solmazçiçəyi dəmləməsi) içərsə, şəkər, diabet deyilən azar-bezara tuş gəlməz. İydənin ən qiymətli cəhəti ondadır ki, onun unlu hissəsi faydalı birləşmələrlə zəngin olduğu kimi, çəyirdəyinin səthində də qəribə maddələr var. Ağız suyunda həmin təbəqə maddələri asanlıqla əriyib qəbul edildikdə böyrək yollarına çox güclü müalicəvi təsir göstərir. Təəssüf ki, ilin fəslindən asılı olmayaraq, banan, kivi, qreypfrut, naringi, ananas kimi tropik ölkələrdə yetişən, hər ölkəyə yayılan bu meyvələr, kənar ölkələrdən gətirilən görünüşü gözəl, əslində, dadı-tamı yerli məhsula çatmayan alma, armud, üzüm, heyva və digər meyvələr az qala iydəni gözdən salıb.

Çox təsadüfi hallarda, Novruz bayramı ərəfəsində evlərimizə gələn qonaq-qara xatirinə ildə bir dəfə digər meyvələrlə yanaşı, bazarlardan iydə alarıq.

Doğrudur, günümüzdə park və xiyabanlara əkilməklə, yol kənarlarının yaşıllaşdırılması ilə iydənin artırılmasına fikir verilir. Lakin çoxu kiçik cır meyvəli kollardır. İri meyvəli "innabı" sortlu iydənin artırılması çətin deyil. Erkən yazda – qələmə pöhrələri yerə sancılan vədələrdə həmin iri sort iydələrdən kəsilən 1-2 illik cavan pöhrələr (30-50 sm) torpağa sancılır. Torpağa tələbkar deyil, xüsusi dibləməyə də ehtiyac olmur. Mal-qaradan qorunub mühafizə edildikdə, suyunu vaxtında ödədikdə 4-5 ilə barlı ağaca çevrilir. İydə Naxçıvan torpağının ən qədim meyvələrindəndir: özü də qiymətli dərman bitkisidir.

**Qaşdar ƏLİYEV**
***aqronom-fenoloq***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 143